# RESENZİYA

**Leyla Mehdiyeva**[*]

## “Məntiq” kitabı haqqında




**Kitabın adı:** Məntiq
**Müəllif:** Zeynəddin Hacıyev
**Kitabın dili:** Azərbaycan dili
**Nəşr ili:** 2011
**Səhifəsi:** 240
**Nəşriyyat:** “Tİ-Media”
**Şəhər:** Bakı
**Ölkə:** Azərbaycan

### 1.Giriş

Zeynəddin Hacıyev 1941-ci ildə Balakən rayonunun Tülü kəndində anadan olub. O, görkəmli Azərbaycanlı filosof, elmlər doktoru və professordur. 2019-cu ildə “Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)” yubiley medalı ilə təltif olunmuşdur. Alim sosial strukturun dəyişilməsi, sosial fəlsəfədə mənəviyyat və şəxsiyyət azadlığı problemləri üzrə tədqiqatlar aparır.

### 2.Z.Hacıyevin Əsərləri

Alim sosial-siyasi elmlər seriyasına daxil olan çoxsaylı əsərlərin müəllifidir: “Keçid dövrü və sosial dəyərlər” (1-ci kitab) (Bakı 2003), “Fəaliyyət anlayışının sosial-fəlsəfi təhlili" (2-ci kitab) (Bakı 2004), "Sosial idrakda həqiqət ilə dəyərin münasibəti" (3-cü kitab) (Bakı 2006), "Müasir cəmiyyətin sosial strukturunun dəyişilməsinin əsas meylləri" (4-cü kitab) (Bakı 2009), "Mənəvilik anlayışının fəlsəfi mahiyyəti" (5-ci kitab) (Bakı 2009),"Azadlığın strukturunda dəyərlər seçiminin rolu" (6-cı kitab) (Bakı 2009, 343-343s.), "Sosial tərəqqinin meyarı məsələsinə dair" (7-ci kitab) (Bakı 2009, 355-356s.), "Fərd sosial əlaqələr sistemində", "Müasir dövrün aktual problemləri"(8-ci kitab) (Bakı 2009, 224-226s.), "Sosial fəlsəfənin

[*] Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə və Sosiologiya İnstitutunun “Fəlsəfə tarixi” ixtisası üzrə magistr tələbəsi; Bakı, Azərbaycan
E-mail: mehdiyevaleyla213@gmail.com
https://orcid.org/0000-0002-2460-9684

funksiyalarına dair" (məqalə) "Müasir dövrün aktual problemləri" (9-cu kitab) (Bakı 2011, 229-231s.), "İdarəçilikdə tələbələrin rolu probleminin sosioloji təhlili" (məqalə) "Tarix və onun problemləri" (10-cu kitab) (Bakı 2011, 346-350s.), "Azadlıq sosial birliklərin və fərdin maraqları kontekstində" "Qloballaşma şəraitində sosial problemlərin həlli yolları" (11-ci kitab) (Bakı 2013), "Sosial-iqtisadi proseslərdə dəyərlərin rolu" (12-ci kitab) (Bakı 2013, 173-181s.), "Sosial məkan və sosial zamanın ontoloji əsasları" (13-cü kitab) (Bakı 2015, 219-225s.), "Sosial idrakda həqiqət problemi" (14-cü kitab) (Bakı 2017, 62-69.), "Elmi fakt ilə nəzəriyyənin qarşılıqlı münasibəti" (15-ci kitab) (Bakı 2017, 87-94s.), "Multikultural proseslərin nəzəri mənalandırılmasında anlama prosedurunun rolu" (16-cı kitab) (Bakı 2017, 85-91s.), "Sosial fəlsəfə", "Социальная философия", "Social Philosophy" (17-ci kitab) (Bakı 2001), "Fəlsəfə" (Ali məktəblər üçün dərslik), "Философия", "Philosophy" (18-ci kitab) (Bakı 2002, 488s.), "Məntiq" (Dərs vəsaiti), "Логика", "Logics" (19-cu kitab) (Bakı 2007), “Ontologiya və idrak nəzəriyyəsi" (dərslik), "Онтология и теория познания", "Ontology and theory of knowledge" (20-ci kitab) (Bakı 2013).

**3.Z.Hacıyevin “Məntiq” kitabının əhəmiyyəti**

Hər şey bir səbəblə baş verir. Əgər hər hansı bir pis hadisə baş verərsə və biz problemin mahiyyətinə müvafiq vəziyyətə uyğun müəyyən bir düşüncə ilə çata bilsək, o zaman baş vermiş problemi həll edə bilərik. Həmçinin, baş vermənin məntiqini dərk etsək, belə problemin təkrarlanmasının qarşısını ala bilərik. Beyindəki saxta qorxuları aradan qaldırmaq üçün məntiq də mühümdür. Məntiqlə bağlı fikir çox aydındır ki, bəzi hərəkətlərin təhlilinə əsaslı, xüsusi və elmi yanaşma kimi məntiqi təfəkkürə dayanır. Hər bir insan gündəlik həyatında məntiqdən istifadə edir. Çox sadə- şəhərə getmək və kifayət qədər ucuz və rahat nəqliyyat növünü seçmək nümunəsi ilə fikrimizi izah edə bilərik. Şəxsi üstünlüklər qərarların qəbul edilməsində mühüm rol oynayır. Məntiq çox vaxt ağlabatanlıq əsasında şəxsi seçimlərə üstünlük verir. Deməli, arzu və istəklərdən əl çəkib məntiqlə qərar vermək normal olaraq çətinləşir. Məntiq həyatın hər hansı konkret sahəsinə aid deyil. Həyatımızda baş verən bütün gündəlik məsələlər məntiqi yanaşmanı özündə əks etdirir. Başqa sözlə, bunu real sahələrə şamil etsək; biznes tamamilə məntiqdən istifadəyə əsaslanır, həkimlərin verdiyi elmi qərarlar məntiqin formalaşması əsasında mümkün olur, səhvi doğruya çevirmək ancaq məntiqlə mümkündür.

*“İnsan təfəkkürünün malik olduğu metodlar və vasitələr nə qədər zəngin olursa, onlardan səmərəli istifadə edilməsi zərurəti də bir o qədər artır. Bu vəzifənin uğurlu həlli isə düzgün təfəkkürün forma və*

*qanunlarını öyrədən məntiq elmindən kənarda qeyri-mümkündür. Məntiqi bilən adam daha düzgün və dəqiq fikirləşməyi bacarır, onun mühakiməsi aydın və səlis olur. Məntiqi təfəkkür bu və ya digər şəxsə öz mühakimələrinin doğruluğunu sübut etmək, başqalarının fikirlərini düzgün qiymətləndirmək, onlardakı yalanı aşkara çıxarmaq imkanı verir. Deyilənlərdən aydın olur ki, formal məntiqi bilmək, onun əsaslarına yiyələnmək hazırki dövrdə ixtisasından, profilindən asılı olmayaraq, demək olar ki, bütün peşə sahiblərinin intellektual səviyyəsinin ayrılmaz komponentinə çevrilməkdədir. Bəzən belə bir fikirlərə rast gəlinir ki, məntiq elmini öyrənmədən də məntiqi düşünmək mümkündür. Doğrudur, həyat təcrübəsinə əsaslanmaqla müəyyən məntiqi düşüncəyə malik olmaq mümkündür, lakin nəzərdə tutulmalıdır ki, əsl elmi təfəkkürün, yüksək səviyyəli, sərbəst və mücərrəd düşüncənin əldə edilməsində məntiq elminə yiyələnmək olduqca zəruridir.*” (Z.Hacıyev, 2011, s.3-4)

**4.Z.Hacıyevin “Məntiq” əsərinin quruluşu haqqında**

Kitab 9 fəsildən ibarətdir. Hər bir fəslin məzmununu ayrı-ayrı dəyərləndirək.

I fəsildə məntiqin tarixi, formalaşması və digər elmlərlə əlaqəli şəkildə inkişafından söz açılır. Müəllif burada məntiqin predmeti, təfəkkür anlayışı, onun forma və qanunlarından bəhs edərkən səlis və aydın, oxucular tərəfindən asanlıqla başa düşülən ifadələrə geniş yer vermişdir. Burada qeyd edildiyi kimi məntiq təfəkkürü öyrənən elmdir. Lakin təfəkkürü öyrənən bir çox elm var, bu əsasda da məntiqin digər elmlərdən fərqləndirilməsi mühümdür. Nəzərə almaq lazımdır ki, hər bir elm obyekt və hadisələrə öz predmeti çərçivəsindən yanaşır. Psixologiya, fəlsəfə, fiziologiya və s. elmlər təfəkkürü izah edərkən öz mövqelərindən çıxış edirlər. Belə ki, psixologiya təfəkkürü digər psixi hadisələrlə sıx qarşılıqlı əlaqədə, fərdin yaş və fərdi xüsusiyyətlərini nəzərə alaraq öyrənir. Obyektiv gerçəkliyin dərk olunması fəlsəfənin əsas məsələsidir. Bu baxımdan məntiqin fəlsəfi elmlər sırasına aid edilməsi heç də təsadüfi deyil. Lakin fəlsəfə təfəkkür prosesinin pillələri, ümumi inkişaf qanunauyğunluqlarını öyrənir. Məntiq isə təfəkkürü yalnız idrakın vasitəsi kimi götürür və ona bütün insanlara xas olan ümumi proses kimi yanaşır.

II fəsildə təfəkkür formaları, onların növləri və qarşılıqlı münasibətləri özünəməxsus şəkildə izahını tapmışdır. Termin və anlayışların fərqli dillərdəki qarşılığı ilə birlikdə izahı oxucuda mövzunun gedişatı ilə bağlı xüsusi maraq oyandırır.

III fəsildə insanların dünyadakı hadisə və prosesləri öyrənərkən onları ifadə etdikləri formalar əks olunur. Bunlar hökmlərdir. Hökmlərin formasından asılı olaraq insanlar reallıq hadisələrini təsdiq (iqrari) və inkar, həqiqi və yalan formasında səciyyələndirir. Həmçinin burada hökm və cümlə anlayışının əlaqəsi və müayisəsi öz əksini tapmışdır. Qeyd olunur ki, hər bir hökm cümlə ifadə etdiyi halda, hər cümlə hökm ifadə etmir. Hökmlərin sadə və mürəkkəb, fərdi və xüsusi növlərə ayrılması da kitabda aydın şəkildə izah olunmuşdur. Suallar, onların mahiyyəti, növləri və onlara verilən müvafiq cavablar fəslin yekun anlayışlarıdır.

IV fəsildə təfəkkürün qanunları- eyniyyət qanunu, ziddiyyətsizlik qanunu, kafi-əsas qanunu və üçüncü istisna qanunu nümunə və şərhlərlə izah olunmuşdur. Eyniyyət qanununa görə, mühakimə gedişində söylənilən hər bir fikir özü-özünün eyni olmalıdır. Eyniyyət fərq ilə əlaqədə mövcuddur, eyni zamanda iki və daha artıq predmetin eyni anda eyniyyəti qeyri-mümkündür. Ziddiyyətsizlik qanununa əsasən, istənilən predmetə eyni anda bir əlamətin aid olduğunu həm də aid olmadığını söyləmək qeyri-mümkündür. Ziddiyyətsizlik qanunu sübut edir ki, eyni bir obyekt haqqında müəyyən bir fikri təsdiq etməklə öz mülahizəmizin inkarına yol vermək olmaz. Üçüncünü istisna qanunu ziddiyyətsizlik qanunundan o əsasda fərqlənir ki, ziddiyyətsizlik qanunu həm əks, həm də zidd hökmlərə (ümumilikdə uyuşmayan) aid edilir. Lakin üçüncünü istisna qanunu sübut edir ki, həmin hökmlərdən biri mütləq yanlışdır. Kafi-əsas qanununa görə, istənilən fikir həqiqi və ya yalan ola bilir. Həmin fikrin həqiqiliyinin və yalan olması yalnız kafi dərəcədə əsaslandırıldıqda gerçək olur.

V-VI-VII fəsillərdə əqli nəticələr, onların növləri- induktiv, deduktiv, analoji əqli nəticələr, ayırıcı və münasibət bildirən hökmlərdən yaranan sillogizmlər, onların növlərinin izahı verilmişdir.

VIII fəsildə hipotez anlayışı, növləri, hipotezlərin irəli sürülməsi, yoxlanılması və sübuta yetirilməsi əks olunub.

IX fəsildə son olaraq sübut və təkzib anlayışları, sübut prosesinin quruluşu və formaları, sübut və təkzibə verilən tələblər, onların pozulması zamanı yaranan səhvlər haqqında məlumat əldə etmək mümkündür.

**5.Nəticə**

Z.Hacıyevin “Məntiq” kitabında məntiq elmi ilə tanışlıq, onun gerçəklikdəki hadisə və proseslərin öyrənilməsində rolu, bunun üçün istifadə olunan qanunlar, irəli sürülən hipotezlər, mühakimələrin həqiqiliyinin yoxlanılması, sübuta yetirilməsi, yanlış olduğu təqdirdə təkzib etməyin yollarını səlis və aydın, özünəməxsus şəkildə işləyib hazırlamışdır. Mövzuların hər biri ayrı-ayrı fəsillərdə izah olunaraq oxucuya çatdırılmışdır.

Müəllif kitabın işlənmə üslubu, ifadələrin düzgün və müqayisəli şəkildə seçilməsi, sual və tapşırıların irəli sürülməsi baxımından həm tələbələrin, həm də tədqiqatçıların mövzu ilə ətraflı tanış olmasına imkan yaratmışdır. Lakin bütün bunlarla yanaşı, fikrimcə, bəzi məhdud çərçivələr də öz əksini tapmışdır. İlk mövzulardan başlayaraq nəzər yetirsək, məntiq elminin digər elmlərlə əlaqədə əhəmiyyətinə və onların fərqliliklərinə geniş şəkildə diqqət çəkmək bu elmlə ilk dəfə tanış olanlar üçün də anlaşıqlı və rahat mənimsənilən üslub olar. Məntiqin digər elmlərlə fərqindən söz açarkən, onun yalnız humanitar sahə ilə, xaricdən müqayisəsi ilə yanaşı, həmçinin riyazi məntiq ilə də fərqliliklərinə toxunmaq məqbul sayıla bilər. Riyazi məntiqlə onun səciyyəvi xüsusiyyətləri bir sıra şərtlərdə təcəssümünü tapmışdır:

1. Riyazi məntiqdə terminin mənası şərhə görə müəyyən edilir, ona görə də sistem işlədikcə dəyişmir. Əksinə, insan şüurunda terminin mənası təcrübə və kontekstdən asılı olaraq çox vaxt dəyişir. Misal: “Dil” nədir?

2. Riyazi məntiqdə mürəkkəb terminin mənası tamamilə onun tərifi ilə müəyyən edilir ki, bu da onun mənasını komponentlərinin mənasına və komponentləri birləşdirən operatorun mənasına endirir. Əksinə, insan şüurunda mürəkkəb terminin mənası hələ də onlarla əlaqəli olsa da, çox vaxt onun tərkib hissələrinə tam endirilə bilməz. Misal: Qara lövhə məhz qara lövhədir.

3. Riyazi məntiqdə ifadə ya doğrudur, ya da yanlışdır, lakin insanlar çox vaxt müəyyən ifadələrin həqiqət dəyərlərini doğru ilə yalan arasında qəbul edirlər. Misal: Sabah buludlu olacaq doğrudur, yoxsa yalan?

4. Riyazi məntiqdə ifadənin həqiqət qiyməti zamanla dəyişmir. Ancaq insanlar tez-tez yeni məlumat əldə etdikdən sonra inanclarını yenidən nəzərdən keçirirlər. Nümunə: bir canlının pinqvin olduğunu öyrəndikdən sonra onun yalnız quş olduğunu bildiyimiz zaman formalaşmış inanclarımızı dəyişirikmi?

5. Riyazi məntiqdə ziddiyyət istənilən ixtiyari nəticənin sübutuna gətirib çıxarır. Ancaq, insan şüurunda bir ziddiyyətin olması insanı buna məcbur etməyəcək. Misal: ziddiyyətli inanclarla qarşılaşdıqda 1+1=3 hipotezinə inanırsınız?

6. Ənənəvi mülahizə sistemlərində nəticə çıxarma prosesləri alqoritmləri izləyir, buna görə də proqnozlaşdırıla biləndir. Digər tərəfdən, insanın düşünmə prosesləri çox vaxt gözlənilməz olur və çox vaxt nəticə çıxarma prosesi gözlənilməz istiqamətə atılır. Misal: heç yazı planınızı təxirə salıb, “ilham” gözləmisiniz?

7. Ənənəvi mülahizə sistemlərində nəticənin necə əldə edildiyi dəqiq izah edilə və təkrarlana bilər.
Əksinə, insan şüuru çox vaxt qaynaqları və yolları geri çəkilə bilməyən nəticələr çıxarır. Misal: heç demisizmi “mən buna niyə inandığımı bilmirəm, bu mənim intuisiyamdır?”

8. Ənənəvi əsaslandırma sistemlərində hər bir nəticə çıxarma prosesi əvvəlcədən müəyyən edilmiş məqsədə malikdir və məqsədə çatdıqda proses dayanır. Bununla belə, insan düşüncə prosesləri də müxtəlif məqsədlərlə idarə olunsa da, çox vaxt onlara tam nail olmaq olmur. Misal: heç həyatınızın məqsədini tapmağa çalışmısınızmı? Bu prosesi dayandıra bilərsizmi?

Kitabda məntiqin nəzəri forması başa düşüllən üslubda tələbələr və tədqiqatçıların diqqətinə çatdırılmışdır. Hər bir anlayışı izah edərkən gündəlik həyatdan verilən nümunələr, mövzular əsasında tərtib olunan sual və tapşırıqlar oxuyucuları məntiq sahəsində düşünməyə, təfəkkürü inkişaf etdirməyə bir növ stimul verir.